# Özbəkistanda Repressiya qurbanları

Hələ ötən əsrin əvvəllərindən özbək və Azərbaycan yazıçıları əməkdaşlıq etmiş və Sovet rejiminə qarşı mübarizə aparmışlar . Belə ziyalılardan Hüseyn Cavid də, Mikayıl Müşfiq də, Abdurrauf Fitrət də, Çolpan da, Vətən, Turan sevdalı digər şair, yazıçılarımız, aydınlarımız da Turan ideyalası uğrunda mübarizə aparıb, öz həyatlarını ideya uğrunda, millət uğrunda fəda ediblər.

Qeyd etmək lazımdır ki həm Azərbaycanda, həm də Özbəkistanda "ortaq keçmişdən ortaq gələcəyə" gedən yolun yolçusu olan ədiblərin, aydınların xatirəsi əbədiləşdirilib, onların irsi əziz tutulur, öyrənilir və öyrədilir. Repressiya rejimi belə aydınlarımızı fiziki cəhətdən sıradan çıxarsa da , ancaq onların ruhu, onların ideyaları və mübarizəsi yaşadı, ölümlərə, repressiyalar və repressiya törədənlərə qalib gəldi.SSRİ dövründə Türküstanın müstəqilliyi uğrunda mübarizə aparan Qorbaşı (Basmaçı) Hərəkatının 173 üzvünə Özbəkistan Ali Məhkəməsi bəraət qazandırıb. Qeyd edilirdi ki, Türküstanın müstəqilliyi uğrunda mübarizə apa ran mücahid ziyalılar həmin qanlı illərdə Sovet İttifaqı tərəfindən silahlı üsyana cəhddə və rejimə qarşı xarici dövlətlərlə əməkdaşlıqda ittiham olunublar: "Özbəkistan Ali Məhkəməsi onlara qarşı olan xəyanət ittihamının ləğv edilməsinə və sözügedən şəxslərin bəraət almasına qərar verib". Sovet İttifaqında 1937-1953-cü illərdə təkcə Özbəkistanda 100 minə yaxın insan rejim əleyhinə müxtəlif cəzalara məhkum edilmiş, 13 min nəfər güllələnmişdir. XX əsrin 30-50 ci illərində Özbəkistanda aparılmış repressiya siyasətində SSRİ rəhbərliyinin əsas məqsədi müstəqillik ideyalarının qarşısını almaq idi. Azərbaycanın və Özbəkistanın ziyalıları, alimlər, din xadimləri, şairlər, yazıçılar, fəal vətənsevərlər eyni taleyi yaşayıb, heç bir günahı olmadan müxtəlif bəhanələrlə Sibirin, Qazaxıstanın qışda insanı bıçaq kimi kəsən, yayda ilan mələyən çöllərinə sürgün olunub, güllələnib. Azərbaycanda 30 ildən artıq davam edən repressiyada xalqımızın genofonduna böyük zərbə dəyibdir. Azərbaycandan Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad və digərləri, Özbəkistandan Fitrat, Botu, Abdulla Qadiri, Usman Nasir, yüzlərlə bu kimi ziyalı qətlə yetirilib. Repressiya maşını soydaşımız, özbək ədəbiyyatının klassikinə çevrilən şair, "Manquberdi","Mirzə Uluğbəy" kimi dramlar, "Daşkəndnamə" poemasını ortaya qoyan Maqsud Şeyxzadədən də yan keçməyib.

Özbək romançılığının "atası" Oybek, Şuhrat, Mirzakolon İsmaili, Said Axmad, Şükrulla və digər ziyalılar "xalq düşməni" elan edilərək qətlə yetirilibdir.

Özbək alimi Xalid Səid Xocayev İstanbulda universitet bitirib, Mahmud Qaşqarinin "Divani-lüğəti-it türk" əsərini Azərbaycan dilinə tərcümə edib və bir müddət sonra həbs olunaraq güllələnibdir.

Repressiya illərində özbəklərlə birlikdə digər xalqların nümayəndələri də sürgün olunub. Azərbaycanda doğulan, Özbəkistana sürgün edilən, burada ad-san qazanan Maqsud Şeyxzadə onlardan biridir.

Müstəqillik dövründən etibarən hər ilin avqustun 31-i Özbəkistanda Repressiya Qurbanlarının Anım Günü kimi qeyd olunur.